MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ:
NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR
Arzu Soltan (Həsənli) 96

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ
Rauf Bəhmənli 110

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN
Ramal Nadir 116

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ
Xəyyam Orucov 122

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ
Fariz Xəlilli 125

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ,
XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ
YAŞADILMA PROBLEMLƏRİ
Kübra Əliyeva 129

AZƏRBAYCAN KƏLAĞAYISI – MİLLİ KİMLİYİMİZİN İPƏK SİMVOLU VƏ
MƏDƏNİ İRSİMİZİN ZƏNGİN XƏZİNƏSİ
Sulidə Rüstəmova 155

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ
ESTETİK TƏHLİLİ
Röya Talıblı 157

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA
Nəzər Əliyev 161

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ
Şəhla Xəlilli 165

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU
Nərmin İmanova 169

AZƏRBAYCAN MİLLİ MƏTBƏXİNİN TƏHRİFSİZ ŞƏRHİ
Ceyran Əsgərova 175

XALQIMIZIN SÜFRƏ VƏ MƏTBƏX MƏDƏNİYYƏTİ
Kübra Əliyeva 190

TƏNDİRİN TARİXİ VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ
Aida İsmayılova 194

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ
Fariz Xəlilli 198

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ

Fariz Xəlilli
Tarix üzrə fəlsəfə doktoru
AMEA Arxeologiya və Antropologiya İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.340

Azərbaycan xalqının əsrlər boyu formalaşan milli-mənəvi mədəniyyətinin ayrılmaz hissəsi olan süfrə mədəniyyətinin kökləri qədim zamanlardan başlamış, orta əsrlərdə inkişaf etmiş və bu gün də qorunub saxlanılmaqdadır. Əlbəttə, süfrə mədəniyyəti müxtəlif çeşidli yemək və təamlar, süfrə adətləri və ədəb-ərkan qaydaları ilə yanaşı, həm də rəngarəng qab-qacaq dəstləri ilə də ölçülür. Azərbaycan müstəqillik qazandıqdan sonra aparılan arxeoloji tədqiqatlar, arxeoloqların gəldiyi qənaət də bütün bunları deməyə əsas verir.

Qafqaz Albaniyasının Xınıslı yaşayış yeri kimi tanıdığımız qədim Şamaxı şəhərində sarayların qalıqları və qəbir abidələrindən aşkar edilən rəngarəng qızıl, gümüş, şüşə, saxsı qab nümunələri hələ antik və ilk orta əsrlərdə süfrələrimizin zənginliyini göstərir. Şirvanşahlar dövlətinin saraylarında, böyük ictimai binalarda zəngin süfrə mədəniyyəti məlumatları orta əsr tarix yazarları, təbiblər və şairlərin əsərlərindən görünür. Bu ənənə sonrakı dövrlərdə də davam edərək Şirvan bəylərbəyi olan və Avropada "Şirvanın kralı" kimi tanınan Abdulla xan Ustaclının ingilis səyyahı Antoni Cenkinsonu öz çadırında qonaq etməsi və yeməklərin yüzlərlə çeşidinin tarixə keçməsinə səbəb olub.

Tarixi İpək yolunun marşrutu üzərində yerləşən, müxtəlif ölkələrin tacirləri və Şirvanın rəsmi qonaqlarının əsas dayanacağı olan, Yeni Şamaxı, Cəlalabad və daha çox Ağsu şəhəri kimi tanınan son orta əsr paytaxt şəhərimizdə 2010-2012-ci illərdə aparılan arxeoloji qazıntılar kulinariya mədəniyyətinin XVIII əsr - Şirvan xanlığı dövrü maraqlı rəngarəng nümunələrini qarşımıza çıxarıb. Hazırda həmin maddi-mədəniyyət abidələrinin əksəriyyəti "Orta əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu, Ağsu Tarix-Diyarşünaslıq Muzeyi, AMEA Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində qorunur.

Bütün dövrlərdə olduğu kimi kulinariya mədəniyyətinin əsas inkişaf göstəricisi ocaq və təndir qurğuları ilə bağlıdır. Arxeoloji tədqiqatlar zamanı belə qurğular həm ictimai, həm də fərdi xarakterli olmaqla üzə çıxıb. Qazıntı zamanı Ağsu şəhərində iki çörəkbişirmə sexi və bir yeməkxana şəbəkəsi aşkar edilib. Çörəkbişirmə sexinin biri şimal qala divarına bitişik olmaqla qalanın baş küçəsi ilə qala divarı arasında yerləşib. Həmin çörəkbişirmə sexində müxtəlif illərə aid olan iyirmidən çox təndir aşkar edilib. Çörəkbişirmə sexi çörək və şirniyyat bişirilməsi ilə yanaşı yemək bişirilməsi və satışı xidməti də göstərib. Bunu həmin təndirlərdə və ətrafında tökülmüş qaramal, qoyun-quzu, quş sümükləri də sübut edir. Çörəyin unu kənar dəyirmanlardan gətirilsə də sexlərdə əl dəyirmanlarının istifadə edildiyi də görünür.

Çörəkbişirmə sexinin əsas binasının içərisindən süjetli kaşı - divar bəzəyi aşkar edilib. Həmin kaşı yerli sənət əsəri kimi dəyərli olub, məhz Ağsu şəhərinin sakinlərinin - xüsusilə varlı tərəkəmə oba başçılarının birgünlük istirahət məclisini təsvir edir. Məşhur sənətşünas alim Ziyad-xan Əliyev həmin kaşı lövhəni şərti olaraq "İstirahət" və yaxud "Görüş" səhnəsi adlandırıb.

İkinci çörəkbişirmə sexi sənətkarlıq emalatxanalarının sıx yerləşdiyi mərkəzi küçələrin birinin şimal tərəfində aşkar edilib. Buradakı təndirlərdən biri Azərbaycanda aşkar edilən sex

təndirlərinin ən irilərindəndir. İri təndir ətrafından həmin dövrdə satış zamanı unudulmuş mis fuluslar topa şəkildə üzə çıxıb. Sexə məxsus məişət tullantıları çeşidlənib və yaxınlıqdakı köhnəlmiş təsərrüfat quyularına tökülüb. Qazıntı zamanı həmin quyulardan çürüməyən qalıqlar - saxsı, farfor və şüşə qab hissələri, metal və daş əşyalar əldə edilib. Bu sexdə də çörəklə yanaşı şirniyyat və ət yeməklərinin bişirilərək satıldığı görünür. Belə ki, buradan şəkərburaya naxış vurmaq üçün çoxlu sayda mis maqqaşlar aşkar edilib.

Sənətkarlıq məhəlləsi və imkanlı şəxslərə məxsus evlərin aşkar olunduğu ərazilərdə çoxsaylı şərab və şərbət şüşələri və balonların əldə edilməsi imkanlı şəhərlilərin (əyanlar, varlı sənətkarlar, tacirlər və s.) mətbəxində Avropa istehsalı içkilərin də olduğundan xəbər verir. Bununla yanaşı, Çində istehsal olunan farfor qabların hissələri çoxlu sayda aşkar olunub. Ağsu şəhəri əhalisinin mətbəxinə farfor qabların daxil olması rus zabitlərinin dediyi kimi şəhərin zənginliyindən xəbər verir. Buradan aşkar olunan bir qabın oturacağında çin heroqlifi ilə "Min imperatorunun sarayında hazırlanmışdır" damğası həkk edilib.

Avropa porselenləri də mətbəxdə geniş istifadə edilib. Bunu İngiltərədə "Leeds" və "Vejdvud" manufakturalarında istehsal edilən porselen qalıqları, “London” şüşə qabları xüsusilə göstərir.

Yeməkxana şəbəkəsi şimal qala divarı yaxınlığındakı hamamın cənub tərəfində yerləşmişdir. Burada restoranın mətbəxində quraşdırılan 10-a qədər müxtəlif ocaq qurğusu aşkar edilib. Ocaq qurğuları ilə yanaşı mətbəxdə bir iri təndir, bir saxsı su tüngləri ilə çəkilən bulaq, ərzaq saxlamaq üçün üç təsərrüfat küpü olub. Yeməkxananın daş döşənmiş geniş həyətində iri çinar ağaclarının olduğu çuxurlardan görünür. Həyətin şimal hissəsində hamama bitişik yerdə yeməkxananın qapalı məkanları - otaqlar vardır. Qonaqlar həmin otaqlara pilləkənlərlə qalxa bilir. Otaqların içərisində qızdırıcı vasitə kimi ənənəvi kürsülərdən istifadə edilib. Yeməkxanada ət yeməklərinin üstünlük təşkil etdiyi oradakı tullantı quyularındakı sümük qalıqlarından da görünür.

Çörəkbişirmə sexləri çörək, şirniyyat və yeməklərin bişirilərək satışının yerindəcə topdan və pərakəndə şəkildə həyata keçirildiyi son orta əsr müəssisələridir. Ağsu şəhərində belə iri sexlərin fəaliyyət göstərməsi çoxsaylı şəhər əhalisinin un məmulatına və yeməklərə olan ehtiyac və tələbatlarının ödənilməsi ilə bağlı olub. Əlbəttə, fərdi yaşayış evlərində də çörək və yeməklərin bişirilməsi ilə bağlı qalıqlar aşkar edilib. Qazıntının planından görünür ki, yeməkxanalar isə, əsasən, hamam yaxınlığında, məhəllə meydanlarında, yol kənarlarında salınıb. Əslində arxeoloji qalıqların birləşdirilərək etnoqrafik və topoqrafik mənzərənin ortaya çıxarılması kulinariya və qastronomiya mədəniyyətinin öyrənilməsinə də imkan verəcəkdir. Şirvan qonaqpərvərliyi və qastronomiyasının elmi baxımdan öyrənilməsinə, real tarixi və müasir əsaslar üzərində sənayeləşdirilməsinə ehtiyac var.

Ədəbiyyat:

1. Ağsu şəhəri orta əsrlərdə (tarixi-arxeoloji araşdırma). – I buraxılış: Ağsu arxeoloji ekspedisiyasının 2010-cu il tədqiqatları / nəşrə hazırlayanlar: Q. Cəbiyev, F. Xəlilli. – Bakı: CBS, 2010. – 176 s.
2. Ağsu şəhəri orta əsrlərdə (tarixi-arxeoloji araşdırma). – II buraxılış: Ağsu arxeoloji ekspedisiyasının 2010-cu il tədqiqatları / nəşrə hazırlayanlar: Q. Cəbiyev, F. Xəlilli. – Bakı: CBS, 2010. – 246 s.
3. Ağsu şəhəri orta əsrlərdə (tarixi-arxeoloji araşdırma). – III buraxılış: Ağsu arxeoloji ekspedisiyasının 2011-ci il tədqiqatları / nəşrə hazırlayanlar: Q. Cəbiyev, F. Xəlilli. – Bakı: CBS, 2011. – 138 s.
4. Джабиев Г., Халилли Ф. Позднесредневековый город Ахсу и мир вокруг него // Азак и мир вокруг него: материалы Международной научной конференции (14–18 октября 2019 г., Азов) / отв. ред. Е. Е. Мамичев. – Азов: Изд-во Азовского музея-заповедника, 2019. – С. 70–73.

5. Xəlilli F. Şamaxı tarix-diyarşünaslıq muzeyi. – Bakı: Elm və Təhsil, 2009. – 204 s.
6. Xəlilli F. Azərbaycanın XVIII əsr paytaxt şəhəri – Ağsu // Azərbaycan paytaxtları: elmi-praktik konfransın məqalələr toplusu. – Bakı: Elm və Təhsil, 2014. – S. 162–181.
7. Xəlilli F. Ağsu təcrübəsi – MİRAS İctimai Birliyinin arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılan mədəni irs nümunələrinin konservasiyası, mühafizəsi və təbliği sahəsində fəaliyyəti // 4-cü Beynəlxalq Avrasiya Arxeologiyası Konfransının materialları (1–5 oktyabr 2012, Ağsu, Azərbaycan). – Bakı: Elm və Təhsil, 2015. – S. 113–129.
8. Xəlilli F. Orta əsr Ağsu şəhərinin tarixinə dair // Ağsu şəhəri orta əsrlərdə (tarixi-arxeoloji araşdırma). – I buraxılış: Ağsu arxeoloji ekspedisiyasının 2010-cu il tədqiqatları. – Bakı: CBS, 2010. – S. 12–23.
9. Xəlilli F. Azərbaycan–Avropa əlaqələri (şüşə materiallar əsasında) // Ağsu şəhəri orta əsrlərdə (tarixi-arxeoloji araşdırma). – II buraxılış: Ağsu arxeoloji ekspedisiyasının 2010-cu il tədqiqatları. – Bakı: CBS, 2010. – S. 86–97.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300